# Vebsayt üzərindən təhsil haqqı ödənişi qaydaları

**Ödəniş Qaydaları**

Bu bölmə www.mtk.edu.az saytının ödənişlə bağlı qaydalarını müəyyənləşdirir. Ödənişlər müştəri ilə bağlanmış müqavilə əsasında qəbul edilir. Sizdən tələb olunan məlumatları daxil etdikdən sonra ödəniş etmək üçün açılan ödəniş səhifəsinə daxil olmaqla, siz Şərtlər və Qaydaları tam olaraq qəbul etmiş olursunuz.

**Ödəmə Qaydası**

"Təhsil Haqqının" ödənişini yalnız bank kartları vasitəsi ilə həyata keçirə bilərsiniz. Ödəniş etmək üçün əlaqəli şagird ilə bağlı sizdən tələb olunan məlumatları daxil etdikdən sonra ekranda çıxan məlumatlar sizə aiddirsə "Ödəniş Et" xanasını kliklədikdən sonra ödəmə səhifəsinə keçid alırsınız. Ödəniş bölməsində sizdən qeyd olunan kart məlumatlarını daxil etməyiniz tələb olunur. Tələb olunan kart məlumatları doldurulduqdan sonra debit / kredit kartınızdan ödəniş alınacaqdır. Ödənişlə bağlı hər hansı çətinlik yaşadığınız təqdirdə kart sahibinin bankla əlaqə saxlamağı xahiş və tövsiyyə olunur. Vebsayt ilə bağlı çətinlik yaşadığınız təqdirdə isə (+994) 55 202 84 01 nömrəsinə zəng etməyiniz xahiş olunur.

**Qəbul Olunan Ödəniş Metodları**

Debit / Credit Card (Visa, MasterCard).

**Ödənişin Ləğvi / Qaytarılması**

Ödənişin həyata keçirildiyi kartdan şagird hesabı üzrə "Təhsil Haqqı" məbləğində ödəniş tutulduqdan sonra ödəniş geri qaytarılması müştəri ilə bağlanan müqavilə şərtlərinə görə razılaşdırılır. Ödənilmiş təhsil haqqı əldə etdiyiniz məhsuldan imtina etdiyiniz (yəni, təhsil haqqını ödəyərək bağladığınız müqaviləyə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdiyiniz hal) təqdirdə və ya təhsil haqqının müqavilə dəyərindən artıq ödənilməsi hallarında müqavilə şərtlərinə baxılaraq geri qaytarıla bilər. Bununla bağlı siz Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin qeydiyyat şöbəsinə yaxınlaşaraq imtina barədə və ya artıq ödəniş haqqında ərizə yazmalısınız.

**Məxfilik və Təhlükəsizlik**

Müştəriyə aid bütün məlumatların məxfiliyi tam şəkildə qorunur və heç bir halda üçüncü tərəfə ötürülməməkdədir. Ödəniş etdiyiniz kredit və ya debit kart məlumatları heç bir halda qeydiyyatda saxlanılmır və dərhal silinir.